# Milli Məclisin Sədri Türkiyənin Vitse-prezidenti ilə görüşüb



Dekabrın 23-də Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyənin Vitse-prezidenti Cevdet Yılmazın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqla növbəti dəfə görüşməkdən məmnunluğunu bildirən Milli Məclisin Sədri Bakıda keçirilmiş Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasının əhəmiyyətindən danışıb. İki ölkə arasındakı münasibətlərin Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını özündə ehtiva etdiyini deyən Milli Məclisin Sədri iqtisadi, ticarət, təhsil, turizm, parlamentlərarası və digər sahələrdə əlaqələrimizin günbəgün daha da gücləndiyini qeyd edib. Söhbət zamanı dövlət başçıları arasındakı şəxsi münasibətlərin və sıx təmasların müttəfiqlik münasibətlərinin ardıcıl inkişafını təmin edən əsas amil olduğu vurğulanıb. Spiker Sahibə Qafarova Türkiyənin COP31-in ev sahibi seçilməsi münasibətilə təbriklərini çatdırıb və Azərbaycanın həmişə qardaş ölkənin yanında olduğunu deyib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə mövcud olan ənənəvi sıx əməkdaşlıqdan və qarşılıqlı dəstəkdən məmnunluq ifadə olunub, Türk Dövlətləri Təşkilatının (TDT) türk dünyasının birliyi baxımından əhəmiyyəti diqqətə çatdırılıb.

Söhbətdə parlamentlərarası əlaqələrin dövlətlərarası münasibətlərin mühüm bir hissəsi kimi əhəmiyyəti qeyd edilib, bu sahədə parlamentlərimizdə fəaliyyət göstərən qarşılıqlı dostluq qruplarının fəaliyyəti vurğulanıb. Milli Məclisin Sədri Azərbaycan və Türkiyə parlamentləri arasında ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığın uğurlu inkişafından məmnunluğunu ifadə edib.

Yenidən Azərbaycanda olmaqdan məmnunluğunu bildirən Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaz Türkiyənin COP31-in ev sahibi seçilməsi üçün Azərbaycanın səylərinə görə təşəkkürünü bildirib və bu mühüm beynəlxalq tədbirin keçirilməsi üçün Türkiyənin Azərbaycanın təcrübəsindən istifadə edəcəyini diqqətə çatdırıb.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari, investisiya, enerji və digər sahələrdə birgə reallaşdırdıqları meqalayihələrin böyük regional və qlobal əhəmiyyət daşıdığı qeyd olunub. Bu baxımdan Orta dəhlizin əsas xəttinə çevriləcək Zəngəzur dəhlizinin strateji əhəmiyyət kəsb etdiyi bildirilib.

Söhbət zamanı Azərbaycan və Türkiyə arasında əlaqələrin inkişafının TDT-ni daha da gücləndirdiyi qeyd olunub. Bildirilib ki, bununla yanaşı, TürkPA da türkdilli ölkələrin parlament platforması kimi mühüm əhəmiyyət daşıyır.

Görüşdə Türkiyənin Vitse-prezidenti Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasında təsdiqlənmiş Fəaliyyət Planının qarşılıqlı əlaqələrimizi daha da inkişaf etdirəcəyini diqqətə çatdırıb.



Söhbət zamanı Cevdet Yılmaz Azərbaycanla Ermənistan arasında sülh prosesində əldə olunan nailiyyətlərə də toxunaraq, iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının bölgədə sülh və sabitliyi təmin edəcəyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 24 dekabr (№270).- S.9.